# Hadrutun yeni inkişaf və tərəqqi dövrü başlayıb



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Çox səmimi və yüksək əhvali-ruhiyyədə keçən tədbirdə səslənən dəyərli fikir və mülahizələr bütün vətənpərvər insanlar kimi, məni də çox sevindirib.***

Dövlətimizin başçısı parlaq, dərin məzmunlu çıxışında əvvəlcə qeyd edib ki, oktyabrın 9-u Hadrut qəsəbəsinin işğaldan azad olunmasının birinci ildönümüdür. Cənab İlham Əliyev Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edərək deyib: “Bu günü sizinlə birlikdə burada – Hadrutda qeyd etmək, hesab edirəm ki, xüsusi məna daşıyan hadisədir. Biz uzun fasilədən sonra Hadruta – Xocavəndə qayıtmışıq. Döyüşərək, qan tökərək, şəhidlər verərək qayıtmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların qanı, canı bahasına, hərbçilərimizin şücaəti, qəhrəmanlığı hesabına biz tarixi ədaləti bərpa etdik, işğalçıları doğma torpaqlarımızdan qovduq və doğma torpaqlarımıza qayıtdıq. Bu gün artıq Hadrutun və ümumiyyətlə Qarabağın yeni dövrü başlayır”.

Məlumdur ki, Hadrut əməliyyatı İkinci Qarabağ müharibəsinin zəfər tarixində xüsusi yer tutur. Məhz düşmən üçün bu gözlənilməz və uğurlu hərbi əməliyyat nəticəsində Azərbaycan Ordusu əsas hədəfə - Qarabağın azad edilməsinə nail olub. Ermənistan silahlı birləşmələri ərazidə güclü müqavimət göstərməyə çalışsalar da, yenilməz ordumuzun qarşısında tezliklə öz acizliyini dərk edərək ağır məğlubiyyətə uğramışdır.

Dövlətmiizin başçısı vurğulamışdır ki, Hadrut əməliyyatının çox böyük strateji, tarixi və mənəvi-psixoloji əhəmiyyəti var idi. Bu gün Hadrut rayonu işğalçılardan tam azad edilmişdir. Məlumdur ki, müharibə başa çatandan sonra Ermənistanın Şirak vilayətindən Hadrut rayonunun bəzi kəndlərinə xüsusi diversiya qrupu göndərilmişdi. Lakin terrorçular burada tərksilah edilərək həbs olundular.

Qeyd etmək lazımdır ki, hazırda Azərbaycanın inzibati-ərazi bölgüsünə görə Hadrut qəsəbəsi Xocavənd rayonunun tərkib hissəsidir və vaxtilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid olan Hadrut və Martuni rayonları birləşdirilərək, Xocavənd rayonu yaradılıb. Keçmiş Martuni rayonunun təqribən 55-60 faizi işğalçılardan azad edilib və heç bir şübhə yoxdur ki, Azərbaycan vətəndaşları o bölgələrə də qayıdacaqlar.

Fəxrlə qeyd etmək lazımdır ki, Hadrut azad olunandan heç 10 gün keçməmiş Füzuli azad edildi. Rəşadətli ordumuz cəbhə boyu bütün istiqamətlərdə inamla irəlilədi və sonrakı günlər və həftələr ərzində digər şəhər və kəndlərimiz düşməndən təmizləndi.

Bu gün isə artıq Hadrutda geniş bərpa və yenidənqurma işlərinə start verilib. Möhtərəm Prezidentimiz Hadrutda avtomobil yolunun və məscidin təməlini qoyub. Tezliklə dördzolaqlı Hadrut–Cəbrayıl, Hadrut–Füzuli avtomobil yollarının tikintisinə başlanılacaq.

Dövlətimizin başçısı Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdəki çıxışında demişdir: “Qəsəbənin və Xocavənd rayonunun inkişafı ilə bağlı əsas istiqamət kənd təsərrüfatı olacaq – bitkiçilik, heyvandarlıq, üzümçülük. Burada üzümçülük ənənələri olubdur, üzüm üçün çox münbit şərait var. Kənd təsərrüfatı ilə bərabər, bura çox dəyərli turizm mərkəzi olacaq. Çünki Xocavənd rayonunun turizm potensialı çox genişdir. Bura təbiətcə çox zəngin məkandır, hər tərəf dağlar, meşələr, çaylar, cənnətə oxşayan bir yerdir”.

Tədbirdə çıxış edən Xocavənd rayon ictimaiyyətinin nümayəndələri bildiriblər ki, Azərbaycanın Hadrut və Xocavənddə, bütövlükdə, İkinci Qarabağ müharibəsindəki parlaq qələbəsi müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək qətiyyəti və rəşadətli Azərbaycan Ordusunun igid əsgər və zabitlərinin qeyri-adi şücaətləri sayəsində mümkün olub. Azərbaycan xalqı öz sevimli liderinin arxasında möhkəm dayanaraq Qarabağda tarixi ədaləti bərpa edibdir.

***Anar AĞAYEV,***
***Azərbaycan Tibb Universitetinin professoru, tibb elmləri doktoru***

Xalq qəzeti.- 2021.- 13 oktyabr.- S.5.